

# LAMPA

Bu komiks kitabı gənc nəslin enerji səmərəliliyi və enerjiyə qənaət tədbirləri, o cümlədən enerji sərfiyyatı ilə ətraf mühitə və təbiətə vurduğu zərər haqqında biliklərinin artırılmasına yönəlmişdir.

Komik kitabda enerjiyə qənaət və ətraf mühitə dəyən zərəri azaltmaq üçün konkret, gözəçarpan addımlar təklif olunur uşaqlarda düzgün vərdişlərin inkişafına dəstək verilir.




Max
Danny


Hekayə MEŞƏNİN YANINDAKI BALACA QƏSƏBƏDƏ BAŞLAYIR.
Digər şəhərətrafı qəsəbələrdə olduğu kimi insanlar burada öz sakit həyatlarını yaşayırlar: Maşınlarını sürür, elektrik borclarını ödəyir, çox çalışır və hər axşam evdə ailələri ilə TV izləyirlər.


Hələ görülməli işlərim var.
Məncə sən qalib gələcəksən...
100% sən qalib gələcəksən! Bu gördüyüm ən yaxşı robotdur.
Lea və Luna ailələri ilə birlikdə gözəl bir evdə yaşayırlar.
Lea qarşıdan gələn robot yarışmasına hazırlaşır.



Ozzi! Hara gedirsən? Ozzi!
Dostum, deyəsən acmısan.
Həəə, deməli burada imişsən!
Sənə neçə dəfə demişəm ki, qapını döymədən içəri girmə.
Xahiş edirəm, çıx otaqdan!
Oldu, hələliiik...


Hot Dogs
Bu hot-doq satılan yer qəsəbədə gənclərin ən çox baş çəkdiyi məkandır.
Denni bir tərəfdən xəbərləri oxuyur, bir tərəfdən də yediyi hot-doqdan zövq alır.
Yox! Yenə?!
Maks həmişəki kimi dostlarını əyləndirir.


OH!
YOX!
DANNY, ciddi problemləriniz olacaq!
Axı səhvən oldu, sakitləş, dostum!
Qaça bilərsən, amma məndən gizlənə bilməzsən!!!


Sadəcə bu dəfəlik... Ehhh, qaranlıqda yatmağa nifrət edirəm...
Ozzi?... OZZİ??!!
Ozzi, hardasan? Ay səni balaca sehrbaz...


Lea! Oyan! Ozzi gedib.
YOOOXXX!
Bax, Lea! Onun getdiyi yer buradır! FISTIQLAR...
Qızlar meşənin dərinliyinə gedib çıxdılar.
Ümid edirəm ki, çıxış yolunu tapa bilərik.




Maks və Denni də bir xeyli qaçdıqdan sonra meşəyə çatdılar.






Birdən uşaqlar baca vasitəsilə əsrarəngiz bir daxmaya tərəf uçan yüzlərlə atəşböcəyi gördülər.


Biri NƏ BAŞ VERDİYİNİ mənə izah etsin!
Bilmirəm... Biz Ozzini axtarırıq...
Dağsiçanı...
Uşaqlar, burada nə edirsiniz?
Yeri gəlmişkən, peçenye istəyən var?
Mən ONU izləyirdim!


Yaxşı, çox danışdınız. Gedək, Ozzini tapaq.
Məncə, sizinlə gəlsəm yaxşı olar.
Sən də! Sən də bizimlə gəlirsən!




Bu yer haradır belə?
Bilmirəm, amma bir şeydən əminəm ki, burada olmaq istəmirəm.


Hmm.. Mənə elə gəlir ki, bunun nə olduğunu bilirəm. "YouTube"da görmüşdüm buna oxşarını. Onlar enerji istehsal edirlər.


Vay, lampanın içərisində işıldaböcəklər var! Bu dəli ideya kimin ağlına gəlib?
Orada gözlə, balaca sehrbaz - səni xilas etməyə gəlirik.
Bax, naqillərin hamısı eyni tərəfə gedir!
O düymələrə baxın! Görəsən, onlar nə üçün qoyulub?


İşığı söndürəndə işıldaböcəklərin bəziləri uçub getdilər!
Bu nə səsdir belə?




Dostlar, narahat olmayın, qorxulu heç nə yoxdur!
Sən kimsən və kim sənə bu heyvanları tələyə salmaq haqqı verib? Onları azad elə! Dərhal!


Mənim adım Professor Eltasdır və mən bu heyvanları tələyə salmamışam. Onların hamısı könüllü şəkildə biz insanlara dünyanı xilas etməkdə kömək ediblər!
Professor Eltas keçmiş fizika müəllimidir. Təqaüdə çıxdıqdan sonra həyatını enerji istehsalının alternativ yollarını tapmağa həsr edib.
İnsanlar enerjinin çoxunu israf etdikləri üçün kimsə bununla bağlı bir şey etməli idi! Bunun üçün biz burada enerji istehsal edirik! Bunların hamısı planetimiz üçündür!
Ekrana bir baxın! İnsanlar enerjiyə qənaət etməsələr, dünya bu hala gələcək...
Belə görünür ki, hələ ki heç kim buna diqqət yetirmir! Buna görə də onların israf etdiklərini biz yenidən istehsal edirik!
Eltas əgər insanlar enerjini səmərəli istifadə etməsələr dünyaya nələr olacağını və onun sakinlərinin başına gələcək dəhşətli nəticələri göstərir.


Vay! Bir lampanın işləməsi üçün bu qədər enerjiyə ehtiyac olduğunu bilmirdim.
Qaçış trenajorunda qaçan adam saatda yalnızca 100 vatt enerji yarada bilir.
Bunun başqa bir yolu olmalıdır. Biz söz veririk ki, bu yolu tapacağıq!İstəyirik ki, heyvanlar evlərinə qayıtsınlar...Enerjiyə qənaət edib, bu məlumatı hamıya çatdıracağıq!
Görürəm ki, sizin motivasiyanız kifayət qədərdir. Gəlin, belə razılaşaq: əgər qəsəbəni bütün bir gecə boyunca işıqlandıracaq enerjiyə qənaət edə bilsəniz, bütün heyvanlar evlərinə qayıdacaqlar.Bunun üçün sadəcə 1 həftə vaxtınız var...
Bu qurğu nə qədər enerjiyə qənaət etdiyinizi hesablayacaq.Uğurlar, uşaqlar!
Bunu bacararıq , uşaqlar! Kimlər mənə qatılır?
Hamımız!!!




uploading
Lunanın çəkdiyi videonu yükləyirəm. Bu video sosial media və oyun cəmiyyətində məlumatı yayacaq!


Sizi dəstəkləyirəm, dostlar!
Gəlin enerjiyə qənaət edək!
Gəlin enerjiyə qənaət edək!
İlahi, mənim dağşiçanım!
Sizi dəstəkləyirəm, dostlar!
Bütün qəsəbə enerjiyə qənaət etmək üçün birləşdi.


Lea, nə etdiyimizi bildiyindən əminsən?
Gəlin, balaca işlərdən başlayaq.
Məsələn, dişlərinizi fırçalayan zaman suyu bağlamalısınız.
12/100


Velosipedlər maşınlardan daha yaxşıdır! Həyatınızı qorxulu tıxaclarda keçirməyəcəksiniz! Həm də ki, bu yolla enerjiyə qənaət edəcəksiniz!
Robo Ozzinin sonuncu yeniliyinə baxın!
Yeni bir funksiyası var ki, yanılı qoyduğumuz işıqları tapır və onları söndürür.
30/100


Yəqin fikir vermisiniz ki, fabrikinizdən isti buxar sızılır! Zəhmət olmasa, onu təmir edin. Bu yolla daha çox enerjiyə qənaət edəcəyik.
Uşaqlar, əmin olun ki, bu yerinə yetiriləcək! Əla iş görürsünüz!
Məktəb komitəsinin üzvü olaraq təklif edirəm ki, suyun temperaturunu 40 dərəcədə sabitləyək.
Bu yolla həm enerjiyə qənaət edəcəyik, həm də hamamda əllərimizin qaynar sudan yanmasının qarşısını alacağıq.
Həm də istilik pəncərələrdən çölə çıxır. Onlar da möhkəm bağlanmalıdır.
Mən artıq böyük qız olmuşam və yatanda işıqların yanılı qalmasına ehtiyac yoxdur.
Luna! Sən bunu bacararsan!
Hmm... Nəticədə bu elə də qorxulu deyil...
Enerjiyə qənaət etməyin yaxşı yolu köhnə vərdişləri gözdən keçirməkdir.


Düşünürəm ki, bunlar işə yarayacaq!
Enerji çubuğu Leanın yeni ixtirasıdır. O, lampanın enerji səmərəliliyini yoxlayır.
Haqlısan, əziz qızım! Uzun müddətdir ki, bunu planlayırıq.
Bunu dəyişməlisiniz.
Bu soyuducu ulduza layiqdir! Enerjiyə qənaətlə bağlı ən yüksək nəticələr göstərir. Səni sevirəm, soyuducu!
A+++
Cihazın enerji səmərəliliyi etiketdə A-dan G-yə qədər olan enerji səmərəliliyi dərəcələri baxımından qiymətləndirilir, A+++ enerjiyə ən çox qənaət edən, G isə ən az səmərəli olandır.
Camaşırxana
Paltaryuyan maşını doldurmaq üçün kifayət qədər çirkli paltar toplamaq çox vaxt apardı.
Mənim başqa problemlərim var, dostum, bunların hamısı bu günün camaşırlarıdır.
10
Paltaryuyan maşını işə salmazdan əvvəl kifayət qədər paltar yığıldığından əmin olun. Bununla xeyli enerjiyə qənaət edə bilərsiniz.
Bilirdinizmi, günəş enerjiyə ən yüksək dərəcədə qənaət etmək üçün böyük köməklik göstərir? Biz sadəcə onun istiliyini və işığını səmərəli yolla istifadə etməliyik!
Qoy günəş parlasın, hər yer işıqlansın!


99/100
Hədəfimizə çox yaxınıq!
Elədir, amma bizə verilən müddətin bitməsinə də az qalıb.
23:45
Mən bilirəm nə etmək lazımdır!
Bu lampanı enerjiyə daha çox qənaət edən bir başqası ilə dəyişməliyik.
Olar, amma bunu necə edəcəyik? Tavan çox yüksəkdir axı.
Köməyinizə çatdım, uşaqlar, narahat olmayın!
00:00


Razılıq razılıqdır. Artıq bütün ümidimiz uşaqlaradır.
Yox!
Gözləyin bir dəqiqə! Bu nədir belə...


Mənim cəsur sehrbazım!
Ah, Ozzi, sənin üçün çox darıxmışdım!
Mənim balaca Rozim!!! Elə bildim ki, səni həmişəlik itirmişəm.
Sizə bunu bacaracağımızı demişdim!
Həəəəəəə!




Enerjiyə qənaət edib, onu səmərəli istifadə etmək elə də çətin deyil.
Biz sadəcə gündəlik vərdişlərimizə diqqət etməli və enerji səmərəliliyinin sadə qaydalarını başqalarına təbliğ etməliyik.

**Publisher and proprietor:**
Council of European Energy Regulators
Cours Saint-Michel 30a, 1040 Brussels, Belgium
Tel.: +32 (0)2 788 73 30
Fax: +32 (0)2 788 73 50
www.ceer.eu
e-mail: brussels@ceer.eu
twitter.com/CEERenergy
https://www.linkedin.com/company/council-of-european- energy-regulators/
https://www.facebook.com/CEERenergy

Created by Windfor's Tbilisi

© Council of European Energy Regulators in the framework of the EU4Energy Programme – "Promoting the Clean Energy Transition in the Eastern Partnership Countries: EU4Energy Phase II"

Co-funded by
the European Union

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Kitabın məzmunu yalnız Avropa Enerji Tənzimləyiciləri Şurasının məsuliyyətindədir və mütləq Avropa İttifaqının fikirlərini əks etdirmir.